# Müxtəlif zaman aşırımlarında eyni ad, eyni yol, eyni tale

**Yer üzündə yaşayan minlərlə, milyonlarla insanın ömür yolları kimi taleləri, bəxtləri də bir-birinə bənzəmir. Necə deyərlər, hər kəs başını aşağı salıb sabahını bilmədiyi qismətinə düşən ömrünü yaşayır. Amma bəzən yüzdə, mində, milyonda bir dəfə ömür yolları, taleləri bir-birinə oxşayan insanlar da doğulur. Keçdikləri ömür yolu, yaşadıqları tale bir-birinə çox bənzəyir. Bəlkə də ilk baxışda bu, bir az inanılmaz görünər. Amma bütün bunları özündə əks etdirən faktla qarşılaşanda gördüklərimizə, eşitdiklərimizə inanmaqdan başqa yolumuz qalmır.**

**Bərdə şəhərindəki Şəhidlər xiyabanında eyni adda, eyni soyadda bir-birindən bir az aralıda gül-çiçəyə bürünmüş iki məzar var. İnanılmazdır, deylimi? Amma nə edəsən ki, bu faktdır, yaşanılmış tarixin bir parçasıdır.**

## Atəşkəsin elan olunmasına üç gün qalmışdı

Şəhidlər xiyabanındakı bu məzarlarda müxtəlif illərdə, ayrı-ayrı zamanlarda eyni amal, eyni məqsəd uğrunda canlarından keçmiş iki şəhid dəfn olunub. Onlar əmi-bala İlyas Şahvələdovlardır. Əmi İlyas Şahvələdov 9 may 1994-cü ildə atəşkəs elan olunmağa üç gün qalmış 19 yaşında Ağdərə rayonu uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Yaxınları, doğmaları acı göz yaşları içində onu Bərdə şəhərindəki Şəhidlər xiyabanında torpağa tapşırıblar.

Əmisinin adını daşıyan İlyas Şahvələdov da uzun illərdən sonra onun taleyini yaşayıb. 9 oktyabr 2020-ci ildə 24 yaşında, əmisinin ölümündən 26 il sonra Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalıb. Doğmaları, yaxınları onu da əmisinin əbədi olaraq uyuduğu Şəhidlər xiyabanında dəfn ediblər. Əmi-bala İlyas Şahvələdovlar müxtəlif illərdə dünyaya gəlsələr də, eyni tale yaşayıblar, eyni amal, eyni məqsəd uğrunda döyüşüblər. Sanki əmi İlyas yarımçıq qalmış döyüş yolunu adını daşımış qardaşı Etibarın oğlu İlyasa ötürüb.

İlyas Nəriman oğlu Şahvələdov 10 dekabr 1975-ci ildə Laçın rayonunun Qorçu kəndində dünyaya göz açmışdı. Vətənə dağ vüqarlı oğul kimi böyümüşdü. Təəssüflər olsun ki, ermənilərin işğalçılıq hücumları yüzlərdən, minlərdən biri kimi, İlyasın da arzularının üstünə qan çilədi. 1992-ci ilin ilıq may günlərində erməni qəsbkarları onun dünyaya göz açdığı Qorçu kəndini işğal edib odlara qaladı. 17 yaşlı İlyas da valideynləri, kənd sakinləri ilə bərabər doğma ocaqlarından didərgin düşdü. Onun ailəsi yollarda ən ağır əziyyətlərə qatlaşa-qatlaşa Ağcabədi rayonuna gəlib çıxa bildi. Uca dağlar, geniş çöllər, buz bulaqlar erməni qəsbkarlarının əlinə keçdi.

1994-cü ildə 18 yaşı tamam olanda İlyas Şahvələdov ordu sıralarına çağırıldı. Həmin günlər torpaqlarımızın müdafiəsi uğrunda qanlı döyüşlər gedirdi. Düşmən yeni ərazilərimizi ələ keçirmək üçün bir an olsun belə hücumlarını dayandırmırdı. İlyas Tərtər istiqamətindəki bölüklərin birində xidmət edirdi. Orduya çağırılandan bir müddət sonra gənc əsgəri Ağdərə istiqamətində gedən döyüşlərə göndərdilər. İlyasın ürəyi erməni qəsbkarlarına qarşı nifrətlə, qəzəblə döyünürdü. O səbədən odlu güllələri erməni qəsbkarlarının üzərinə dolu kimi yağdırırdı. Düşmənlər nə qədər irəliləməyə can atsalar da, Azərbaycan Ordusunun zabit və əsgərləri cəsarət və hünərləri ilə yağıların qarşısını alırdılar.

İlyas daim öndə vuruşur, sərrast atəşlə düşmənin irəliləməsinə imkan vermirdi. Arzusu, amalı erməni qəsbkarlarını məğlub edə-edə doğma ocaqlarına, Qorçu kəndinə getmək idi. Təəssüflər olsun ki, düşmən gülləsi gənc əsgərin bütün arzularını parça-parça elədi. May ayının 9-da - atəşkəs elan olunmağa üç gün qalmış, dünyanın bir çox ölkəsində Qələbə günü qeyd olunan gündə Ağdərə uğrunda gedən döyüşlərdə əsgər yoldaşlarını mühasirədən çıxararkən qəhrəmancasına şəhid oldu. Amma məqsədinə çatdı, döyüşçü dostlarını mühasirədən çıxarıb ölümün əlindən aldı. İndi təhsil aldığı Qorçu kənd orta məktəbi onun adını daşıyır.

## Əmisinin məzarı üstündə söz vermişdi ki...

İllər ayaq saxlamadan, nəfəs çəkmədən ötüb keçirdi. 6 avqust 1996-cı ildə yurdumuzun azadlığı uğrunda şəhid olmuş İlyas Şahvələdovun qardaşı Etibarın ailəsində bir oğlan uşağı dünyaya gəldi. Atası ona Qarabağ uğrunda gedən döyüşlərdə şəhid olmuş qardaşı İlyasın adını qoydu. Şəhidin adını daşıdığına görə hamı onu əzizləyir, sevirdi. Şəhid olmuş əmisinin adını daşıdığını biləndə ürəyi qürurla, iftixarla doldu. "Mən də əmim kimi igid, qəhrəman olacağam. Onun yarımçıq qalmış döyüş yolunu şərəflə davam etdirəcəyəm" dedi.



Şahvələdov İlyas Etibar oğlu



Şahvələdov İlyas Nəriman oğlu

18 yaşa çatanda İlyas da tay-tuşları ilə bərabər ordu sıralarına çağırıldı. Qismətinə cəbhə bölgəsində yerləşən hərbi hissədə xidmət etmək düşdü. Elə ilk gündən İlyas təlim-məşqlərdə fəal iştirak edir, döyüş sirlərini dərindən öyrənirdi. Çalışqanlığı, fəallığı hədər getmirdi. Gündən-günə təcrübəsi, səriştəsi artırdı. İlyas xidmət günlərində yurdumuzun xilaskarı olacaq ordunu çox sevdi, ona ürəkdən bağlandı. Vətən qarşısındakı övladlıq borcunu şərəf və ləyaqətlə yerinə yetirdiyinə görə valideynlərinin yanına alnıaçıq, başıuca qayıtdı.

Amma doğma orduya, xidmətə olan sevgi İlyası yenidən Silahlı Qüvvələrin sıralarına qaytardı. Günlərin birində qərarını qətiləşdirərək valideynlərinə "Vətənə əsgər olmağa gedirəm, mənim yerim ordadır" deyərək ordu sıralarına yollandı. Ürəyində dolaşan arzu və istəyinə çatdı. Müddətdən artıq həqiqi hərbi xidmətə başladı.

27 sentyabr 2020-ci ildə erməni təxribatı nəticəsində İkinci Qarabağ müharibəsi başlayanda İlyas Şahvələdovun xidmət etdiyi hərbi hissənin şəxsi heyətini də döyüşlərə cəlb etdilər. İlıq payız günlərində torpaqlarımızın azadlığı uğrunda qanlı döyüşlər alovlanmışdı. Erməni qəsbkarları yeni ərazilərimizi ələ keçirməyə can atırdılar. İlyasın döyüş yolu Füzulidən başladı. Kəndlər, qəsəbələr düşməndən azad olunduqca cəsur əsgərin sevinci yerəgöyə sığmırdı.

Təəssüflər olsun ki, İlyas Şahvələdovun döyüş yolu yarımçıq qaldı. Vətəni canından çox sevən igid əsgər oktyabrın 9-da - müharibənin 13-cü günü Füzuli uğrunda gedən döyüşlərdə şəhid oldu. Torpaqlarımızın azadlığı uğrunda şirin canından keçdi, əmisinin taleyini yaşadı. Onun ölümü doğmalarını, yaxınlarını, komandirlərini və əsgər dostlarını sarsıtdı. Oktyabrın 10-da yaxınları, doğmaları İlyası bir zamanlar özünün də ziyarət etdiyi əmisinin məzarının yaxınlığında dəfn etdilər.

## Müharibələr başlayanda qapıları ölüm xəbərləri döyür...

Ölkəmizin ərazi bütövlüyü uğrunda gedən döyüş əməliyyatlarında hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəf və ləyaqətlə, qəhrəmancasına yerinə yetirdiyinə görə, İlyas Etibar oğlu Şahvələdov ölümündən sonra "Füzulinin azad olunmasına görə" və "Vətən uğrunda" medallarına layiq görüldü.

Yurdumuzun azadlığı uğrunda şəhid olmuş İlyas Şahvələdovun əziz xatirəsi həmişə ehtiramla yad edilir, hörmətlə xatırlanır. Evlərində doğmalarının söhbətlərinin əvvəli də İlyasla bağlı olur, axırı da. Şəhidin atası Etibar Şahvələdov dedi ki, İlyas çox qəhrəman oğlan idi: "Komandirləri də, əsgər yoldaşları da onun xidmətindən razılıqla danışırdılar. İlyas 2016-cı ilin Aprel döyüşlərində də yaxından iştirak etmiş, əsgər kimi üzərinə düşən tapşırıqların öhdəsindən bacarıqla gəlmişdi. İkinci Qarabağ müharibəsi başlayanda onları Füzuli bölgəsinə apardılar. Arada zəng vurub iştirakçısı olduğu döyüşlərdən danışır, qazandıqları uğurları ilə bizi sevindirirdi. Amma günlərin birində qapımızı ürəyimizi kəsib doğrayan kədərli xəbər döydü. İlyas şəhid olmuşdu. Bu acı xəbəri eşidəndə sanki göy yarıldı, dünya başıma uçdu. Övlad itirmək ağır dərddir. Təskinliyi yalnız onda tapırıq ki, onlar torpaqlarımızın azadlığı uğrunda şəhid olublar. Müharibələr həmişə insanlara ölüm gətirir, qapıları bəd xəbərlər döyür. Birinci Qarabağ müharibəsində qardaşım İlyası itirmişdim, İkinci Qarabağ müharibəsində isə oğlum İlyas şəhid oldu. Qardaşım da, oğlum da, bütün şəhidlərimiz də Azərbaycan var olduqca xalqımızın qəlbində yaşayacaq. Övlad və qardaş itirmiş şəhid atası kimi bu, mənim üçün böyük təsəllidir".

## Yarımçıq qalan ömürlər, həyata keçməyən arzular

Şəhidin anası Sədaqət Şahvələdova oğlunun ömür və döyüş yolundan söz açaraq dedi ki, erməni işğalçıları gənc yaşlarımızda bizi doğma ocaqlarımızdan didərgin saldılar: "Köçkünlük həyatında böyük çətinliklərlə üzləşdik. Amma bizim üçün nə qədər əzablı olsa da, çətinliyə baş əymədik, həmişə başımızı dik tutduq. Köçkünlük həyatımız nə qədər çətin olsa da, ailədə 3 oğul, bir qız övladı böyütdük. İlyas dünyaya göz açanda ona yurdumuzun azadlığı uğrunda gedən döyüşlərdə şəhid olmuş əmisinin adını qoyduq. Sanki Tanrı onu bizə əmanət vermişdi. Davranışı, danışığı və ağıllı hərəkətləri ilə başqa övladlarından seçilirdi. Oğlum əsgər kimi üzərinə düşən tapşırıqları bacarıqla yerinə yetirirdi. İlyarımdan sonra İlyas xidmətini başa vurub geri qayıtdı. Amma evdə çox oturmadı. Günlərin birində dedi ki, mən əmimin adını daşıyıram. Ona görə də onun yolunun davamçısı olmaq istəyirəm. Bunu deyəndən sonra yenidən ordu sıralarına qayıtdı. İlyas ailə həyatı qurmağa hazırlaşırdı. Gözəllərin içindən bəyənib seçdiyi qıza elçi getmiş, nişan taxmışdıq, yavaş-yavaş toya hazırlaşırdıq..."

Danışığına bir anlıq ara verən şəhid anası sözünə davam edərək dedi: "Payız yenicə girmişdi. İkinci Qarabağ müharibəsi başlamazdan bir neçə gün əvvəl İlyas məzuniyyətə gəlmişdi. Hərbi hissədən ona gələn zəng oğlumun məzuniyyətini yarıda qoydu. Erməni işğalçıları torpaqlarımıza hücum etmişdilər, müharibə başlamışdı. İlyas bizimlə görüşüb vaxt itirmədən xidməti yerinə qayıtdı. Sonuncu dəfə oktyabrın 5-də zəng vurmuşdu. Xeyli danışdıq. Nişanlısı ilə danışıb-danışmadığını soruşdum. Dedi ki, "ana, bir az əvvəl ona zəng vurmuşdum". Danışığımızın üstündən üç-dörd gün sonra oğlumun ölüm xəbərini aldıq. Bu acı xəbər məni qılınc kimi doğradı. Şir ürəkli övladım müdafiəsinə qalxdığı Vətən uğrunda canından keçmişdi. İlyasın həyatı kimi, arzuları da yarımçıq qaldı".

Sədaqət xanım sözünə davam etdi: "Oğlumun cibindən sevgi məktubları çıxdı. Bunlar ünvanına çatmayan məktublar idi. İlyasın nişanlısına ünvanladığı məktublarında iştirakçısı olduğu döyüşlərdən də qeydlər vardı. O, üzünü görmədiyi, yalnız adını eşitdiyi Laçın həsrətini də qələmə almışdı... İndi balamın qoxusunu onun hərbi paltarından alıram. Qurban olum ona da, onun paltarına da. İnsan həmişə ata-anadan yetim qalar. Biz isə övladdan yetim qaldıq. Bu yaşımızda İlyas bizi yetim qoydu. Amma arzusuna çatdı, hərbçi oldu və torpaqlarımızın azadlığı uğrunda vuruşdu. Təəssüflər olsun ki, Zəfər gününü görə bilmədi".

Şəhidin qardaşı Nəriman Şahvələdov da hərbçi olub. 19-20 sentyabr 2023-cü ildə Qarabağda məskən salmış erməni separatçılarına qarşı keçirilən antiterror əməliyyatında iştirak edib. Deyir ki, qardaşımın sözü-söhbəti üzünü görmədiyi Laçınla bağlı idi: "Bizi doğma ocaqlarımızdan didərgin salan ermənilərə qarşı nifrəti sonsuz idi. Əmimizin adını daşıdığına görə qürur duyur, tez-tez onun məzarını ziyarət edirdi. Günlərin birində özünün də bu xiyabanda uyuyacağını heç ağlına da gətirməzdi. Həm qardaşım, həm də əmim İlyasın qəhrəmanlığı ilə qürur duyur və fəxr edirəm".

Bərdə şəhərindəki Şəhidlər xiyabanında eyni adda, eyni soyadda iki məzar var. O məzarlarda uyuyanlar müxtəlif zamanlarda yaşasalar da, eyni amal, eyni məslək, eyni məqsəd uğrunda şəhid olublar. Onların taleləri bir-birinə oxşasa da, şəkillərindən boylanan mehriban baxışları və gül çöhrələri fərqlidir. Bu cəsur oğullar torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə canlarından keçiblər. Cəsarət və hünərləri ilə adlarını qəhrəmanlıq tariximizə yazıblar.

*Vahid MƏHƏRRƏMOV, "Azərbaycan"*

Azərbaycan. - 2025.- 4 may (№90).- S.10.